**Cavadov A.İ.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.72.87-94**
**UOT: 343**

# Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi ilə bağli – Azərbaycan və xarici ölkələr arasındaki fərqli yanaşmaların müqayisəli təhlili

**Xülasə:** Hazırda cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi mövzuzunda, Azərbaycanla digər xarici ölkələrin yanaşmaları arasında müqayisəli analiz aparmaq və cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların cinayət-hüquqi müdafiəsinin problemləri ilə bağlı müxtəlif təkliflər vermək aktuallığı yaranmışdır. Xüsusilə də, çətin tərbiyə olunan uşaqların – gələcəkdə cinayət tərkibli əməllərin törədilməsinə meyilliyi, o cümlədən cinayətkarlığa gedən yolda olan ilkin addımları, onların yetkinlik yaşına catana qədərki dövrləri əhatə edir. Hansı ki, uşaqların bu dövrünü əhatə edən yetkinlik yaşına atmayanların kriminolgiyası və cinayət-hüquqi müdafiəsi ilə bağlı elmi tədqiqatlar – təkcə cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmış dövrdən, daha dəqiq desək, bizim cinayət qanunvericliyə görə 14 (on dörd) yaşdan başlayaraq 18 (on səkkiz) yaşa qədər olan dövrü deyil, eyni zamanda cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış dövrü, yəni ki, 14 (on dörd) yaşa qədər olan dövrü də əhatə etməlidir. Cünki, 14 (on dörd) yaşa qədər olan yaş dövrünü əhatə edən yetkinlik yaşına çatmayanlarla bağlı məsələlərin araşdırılması – nəticə də, cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların cinayət-hüquqi müdafiəsi ilə bağlı problemlərin öyrənilməsi və bu mövzuda bizimlə digər ölkələr arasındakı fərqli yanaşmaların müqayisəli analizini, habelə, bu problemlərin aradan qaldırılmasına dair yeni təkliflərin verilməsini, həmçinin həmin təkliflər əsasında, bu kateqoriyalı yeniyetmələrin müdafiəsinin hansı qaydada təşkil edilməsini zəruri edir.

**Acar sozlər:** yaş həddi; yetkinlik yaşına catmayan; cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış; kriminologiya; kriminoloji xarakteristika.

AR Cinayət Məcəlləsinin 19-cu maddəsi ilə müəyyən edilmiş cinayət məsuliyyətinin ümumi şərtlərinin, cinayət törətmiş şəxs üçün anlaqlılığı və dəqiqləşdirilmiş yaş həddinə çatmaq tələbi – təkcə hüquqi düşüncə ilə yox, həm də tibbi meyarlara nəzərən məcburilik xarakteri daşıyır [1, s. 40].

Həmin Məcəllənin 20.1-ci maddəsində isə deyilir ki, "Cinayət törədənədək 16 (on altı) yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir" [2, s. 49]. Deməli, cinayət ictimai-təhlükəli əməl olmaqla, həm də psixofizioloji aktdır və cinayət tərkibi yaradan hər hansı əməlin törədilməsindən asılı olmayaraq, burada mütləq ki, subyekt iştirak etməlidir, çünki o, bu əməlin bilavasitə icraçısı olur. Ona görə də, hər hansı cinayət əməli tövsif edilərkən, həmin əməlin ictimai-təhlükəlilik dərəcəsi, xarakteri və s. amillər tədqiq edildiyi kimi, onun subyektinin də psixofizioloji

♦ **Cavadov Anar İlyas oğlu -** Hüquq üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, vəkil, Bakı Dovlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının doktorantı (Azərbaycan). E-mail: vekil_anar@mail.ru

xüsusiyyətləri, şəxsiyyəti barədə məsələlər nəzərdən keçirilir. Deməк ki, daha öncə qeydedilən kateqoriyalı işlərin öyrənilməsində – cinayət-hüquqi düşüncə ilə yanaşı, cinayət-hüquq münasibətlərinin tənzimlənməsi üzrə milli mentalitet, həmçinin mədəni ənənələrin ümumdünya tarixi təcrübəsinin, insanın psixi fəaliyyətinin formalaşması qanunauyğunluqları və mərhələləri ilə bağlı göstəriciləri müqayisə edilir, habelə cinayət qanunvericiliyinin mövqeyi ilə tutuşdurulur. Bunun nəticəsidir ki, cinayət məsuliyyətinin yaranması üçün minimum 16 (on altı) yaş həddi seçilmişdir, çünki fiziologiya, yaş məsələləri ilə bağlı ekspertlər bu yaşda artıq yetkinlik yaşına çatmamış şəxslərin öz davranışının sosial əhəmiyyətini daha yaxşı dərk etmək, bu davranışın hansı formada təzahür edəcəyi barədə qərarlar qəbul etmək, eyni zamanda buna görə məsuliyyət daşımaq qabiliyyətinin mövcudluğu haqqında ortaq qənaətə gəlmişlər.

Bu vaxta qədər, cinayətin subyektinin yaş həddi müxtəlif dövrlərdə müxtəlif şəkildə müəyyən olunmuşdur. Belə ki, 1924-cü ildə qəbul edilmiş SSR ittifaqı və müttəfiq respublikaların cinayət qanunvericiliyinin əsas başlanğıclarında konkret yaş qeyd edilməmişdi, lakin həddi-büluğa çatmayanlar adlanan yetkinlik yaşına çatmayanlar iki qrupa ayrılırdı: azyaşlılar və həddi-büluğa çatmamışlar. Belə mövqe müttəfiq respublikalara cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinin müstəqil təyin edilməsi və cəza təyin edərkən həddi-büluğa çatmayanlar barəsində yüngülləşdirici halların nəzərə alınması üçün əsas verirdi. Sonralar isə, 30 oktyabr 1929-cu il tarixli Qərarla – yaş həddi 16 (on altı) müəyyən edildi və 14 (on dörd) yaşından 16 (on altı) yaşına qədər olan şəxslərin işinin məhkəməyə verilməməsi imperativ norma kimi müəyyən edildi. Lakin cinayətkarlıqla mübarizədə əsas məsələ yetkinlik yaşına çatmayanların cinayətlərinin qarşısının alınması idi.

Bu baxımdan 07 aprel 1935-ci ildə SSRİ MİK və XKS tərəfindən qəbul edilmiş "Həddi-büluğa çatmayanlar arasında cinayətkarlığa qarşı mübarizə haqqında" Qərar – bir sıra tədbirlərin həyata keçirilməsinə şərait yaratsa da, eyni zamanda bir sıra cinayətlərə görə də, daha aşağı yaş həddi olan – 12 (on iki) yaş həddini müəyyən etdi. SSR İttifaqı və müttəfiq respublikaların cinayət-hüquqi münasibətlərini tənzimləyən 1958-ci il tarixli Əsaslarda müəyyən edilmiş yaş həddi isə daha sonrakı Cinayət Məcəllələri ilə qəbul olundu. Həmin qaydalara görə cinayətin subyekti üçün minimum 16 (on altı) yaş tələb olunurdu, bəzi cinayətlər isə cinayət məsuliyyətinə 14 (on dörd) yaşdan cəlb etməyə əsas verirdi. Qanunvericiliyin bu mövqeyi qüvvədə olan 1999-cu il tarixli CM-i ilə uyğun gəlir. Lakin adam öldürmə cinayətinin törədilməsi üzrə – yaranmış təqsirlilik dərəcəsinin hər iki formasına görə məsuliyyəti 14 (on dörd) yaşdan müəyyən edən daha əvvəlki – 1960-cı il Məcəlləsindən fərqli olaraq, hazırkı cinayət qanunvericiliyi üzrə 14 (on dörd) yaşından yaranan cinayət məsuliyyəti, yalnız qəsdən adam öldürməyə görə nəzərdə tutulmuşdur. Həmçinin Azərbaycan SSR-nin Cinayət Məcəlləsində cinayət məsuliyyətinə görə yaş həddini rəsmiləşdirən maddə "Yetkinlik yaşına çatmayanların məsuliyyəti" adı ilə təsbit edilmişdir. Bu da çox güman ki, həmin Məcəlləyə ondan əvvəl qəbul edilmiş bir sıra qərarların, kriminal əməllərlə mübarizədə münasibətləri tənzim etməyə cəhd edən qanunların təsirinin ifadəsidir. Amma nəzərdən qaçmayan bir məqam var ki, bir sıra cinayətlər üçün subyektin indiyə kimi qəbul edilmiş cinayət qanunlarında təsbit olunmuş ümumi yaş həddindən yüksək yaşa çatması tələbi həmin qanunların əksəriyyəti üçün aktual olmuşdur. Belə ki, cinayət qanununda bəzi dispozisiyalarda təsbit edilmiş, cəza təhdidi altında qadağan olunmuş əməlləri törətmək üçün subyektin çatmalı olduğu yaş həddini dəqiqləşdirdikdə, digər qanunvericilik aktlarına istinad edilir. Məsələn, hərbi qanunvericiliyə nəzər yetirsək, CM-də formulə edilmiş hərbi xidmət əleyhinə cinayətlər fəslindəki kriminal əməlləri törətdikdə, yalnız 18 (on səkkiz) və ya daha yüksək yaşı olan subyektin cinayət məsuliyyəti

daşıması barədə normanın mütləqliyindən söhbət açmaq olar. Vəzifəli şəxslər tərəfindən törədilən cinayətlər də bu qəbildən misal çəkilə bilər. Bu yaş həddi artırılmış minimum yaş həddi hesab edilir. Artırılmış yaş həddi bəzi maddələrin elə özündə də qeyd edilir.

Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 20.2-ci maddəsində qeyd olunan bəzi cinayətlərə görə müəyyən edilmiş 14 (on dörd) yaş isə cinayət məsuliyyətinin azaldılmış minimum həddi adlandırılır [1, s. 40]. Bundan başqa, cinayət məsuliyyətinin sosial prinsiplərə daha münasib formada differensiasiyası üçün Cinayət Məcəlləsində ayrıca bölmə olan – "Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti bölməsi" onlara cəza təyin etməklə bağlı münasibətləri də əhatə etməklə təqdim olunur.

Qeyd edək ki, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə Azərbaycanla və xarici ölkələrin yanaşması arasında müəyyən fərqliliklər vardır.

Belə ki, cinayətin subyekti cinayət tərkibinin zəruri elementlərindən biridir. CM-in 3-cü maddəsi də, yalnız həmin Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməli cinayət məsuliyyətinin əsaslarından biri kimi təsdiq edir. Cinayət tərkibi cinayətin mühüm informasiya verən "modeli"dir. Belə ki, törədilən cinayətdə tərkibin zəruri əlamətlərindən biri olmazsa, cinayət məsuliyyəti istisna edilir. Buna görə də, subyekt üçün bəzi tələblərin dəqiq müəyyən edilməsi əksər ölkələrin cinayət qanunu üçün xarakterikdir. Azərbaycan Respublikasının hazırda hüquqi qüvvəyə malik olan CM-də subyektin yaş həddi cinayətlərin kateqoriyaları üzrə, bəzi cinayətlər istisna olmaqla, demək olar ki, fərqlənmir. Ancaq dünyanın hüquq sistemlərinin çoxluğunda bir qədər fərqli məqamlara rast gəlmək mümkündür.

Bizim cinayət qanunvericiliyində 14 (on dörd) yaşdan məsuliyyətə cəlb etməyə hüquq verən cinayətlərin siyahısı qəti göstərilir. Bu cinayətlər heç də cinayətlərin konkret kateqoriyasindan seçilməmişdir. Burada, yalnız həmin ictimai təhlükəli əməllərin xarakteri, onların cəmiyyətə, şəxsiyyətə, dövlətə vurduğu ziyanın dərəcəsi və digər kriminogen xüsusiyyətləri nəzərə alınmışdır.

Xarici ölkələrin isə, heç də hamısı cinayət əməllərinin təsnifatında geniş diferensiasiyaya yer vermir və nəticədə, bunlara uyğun müəyyən edilmiş məsuliyyət tədbirlərinin də, sərtliyi hiss olunur.

Məsələn, Böyük Britaniyada kiber cinayətkarlığa görə 10 (on) yaşına qədər uşaqları cinayət məsuliyyətinə cəlb edillər.

Özbəkistanın cinayət qanunvericiliyi – cinayət məsuliyyətinin minimum yaş həddini 16 (on altı) yaş kimi müəyyən etsə də, məsuliyyəti müəyyən edən həmin norma ilə eyni zamanda, 13 (on üç) yaş və yuxarı yaşda olan şəxslərin, habelə 14 (on dörd) yaş və yuxarı yaşlı şəxslərin, həmçinin 18 (on səkkiz) yaş və yuxarı yaşlı şəxslərin ayrı-ayrı cinayətlərə görə cavabdehlik daşımasını da qeyd edir. Həmin normada, göstərilir ki, 13 (on üç) yaşına çatmış və 13 (on üç) yaşından yuxarı şəxslər ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə cinayətinə görə, digər qeyd etdiyim şəxslər isə Xüsusi hissə ilə nəzərdə tutulmuş başqa cinayətləri törətməyə görə, cinayət məsuliyyətinə cəlb edilirlər.

Albaniya Cinayət Məcəlləsi ilə cinayətlərin iki növü – kriminal pozuntu və kriminal xəta (qanunazidd hərəkət) fərqləndirilir. Bu cinayətlərin içərisindən hər hansıları ayırd edilmədən kriminal pozuntular üçün 14 (on dörd) yaş, kriminal xətalar üçün isə 16 (on altı) yaş müəyyən edilmişdir. Əlavə edək ki, belə bir mövqenin müəyyən edilməsinə baxmayaraq, bu hallarla bağlı məcəllələrdə ayrıca "səbəbli əlaqə" adı altında maddə də təsbit edilir. Məlum olduğu kimi, "səbəbli əlaqə" cinayətin obyektiv cəhətinin ünsürlərindən biridir və mahiyyətcə təqsirkarın cinayət törətməsi üçün əldə rəhbər tutduğu səbəb ilə törətdiyi cinayətin nəticələri arasında bağlılığın olmasını ehtiva edir. Uzun müddətli müzakirələrin prioritet mövzusu olmuş səbəbli əlaqənin

müəyyən edilməsi, şübhəsiz, cinayətin tövsifində bir sıra məsələlərə aydınlıq gətirir. Bu baxımdan Albaniyanın CM-də yüksək mütləqliyi ilə seçilən belə bir qəti norma müəyyənləşdirilir: "Törədilən hərəkət və ya hərəkətsizlik ilə, həmin əməlin baş vermiş və ya baş verə biləcək nəticələri arasında hər hansı "səbəbli əlaqə" mövcud deyilsə, heç kəs cinayət məsuliyyətinə cəlb edilə bilməz.

Yaş həddinin təyin edilməsinin əsas məsələlərindən biri də, şübhəsiz ki, əvvəl də qeyd etdiyimiz kimi, cinayətlərin hansı yaşdan cinayət məsuliyyəti yaratmasıdır. Ümumi yaş həddi müxtəlif dövlətlərdə müxtəlif əsaslarla müəyyən edilir. Hətta müxtəlif cinayət qanunlarında – cinayət məsuliyyəti üçün yaş həddi müəyyən edən cinayət-hüquqi normaların hansı ad altında birləşdirilməsi də fərqlidir. Əlbəttə, burada əsas meyarlardan biri cinayət qanunlarının quruluşunda nəzərə çarpan fərqlərin mövcudluğudur. Müxtəlif ölkələrin qanunlarında bu hissəyə "cinayət məsuliyyətinin yaş həddi", "cinayət məsuliyyətinin minimum yaş həddi" və ya "cinayət məsuliyyətinə cəlb edilməli olan şəxslər" adı verilmişdir.

Ancaq Estoniya Cinayət Məcəlləsində bu, bir qədər başqa formada – "təqsirli olan şəxslər" və ya "təqsirlilik qabiliyyəti" kimi adlandırılmışdır. Bundan başqa, onların Cinayət Məcəlləsində "əqli qabiliyyət" adı ilə verilən norma, anlaqlılıq məsələlərini tənzimləyir.

Elə Azərbaycan Respublikasının 1960-cı il Məcəlləsində də, bu norma hazırkı kimi "Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi" kimi deyil, "Yetkinlik yaşına çatmayanların məsuliyyəti" başlığı altında təsbit edilmişdir. Yaş həddi məsələsinə gəldikdə əksər cinayət qanunları 14-16 yaş həddi mövqeyində durur. Lakin daha yüksək yaş həddini müəyyən edən qanunlar da az deyildir.

Məsələn, Bolqarıstanın cinayət qanunvericiliyi ilə cinayət məsuliyyətinə cəlb etmək üçün ümumi yaş həddi 18 (on səkkiz) yaş müəyyənləşdirilmişdir. 14 (on dörd) yaşdan 18 (on səkkiz) yaşına qədər olan şəxslərin də cinayət məsuliyyəti daşıması qeyd edilir. Lakin bu şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün onların törətdiyi əməllərin faktiki xarakterini, təbiətini anlamaları və onları idarə edə bilmələri tələb edilir.

Macarıstanın cinayət qanunvericiliyinə görə isə, 14 (on dörd) yaşdan məsuliyyət müəyyən edən bir sıra cinayətlər istisna olmaqla cinayətin subyektləri 20 (iyirmi) yaşına və ya daha yüksək yaş həddinə çatmış və törətdikləri cinayətlərin mahiyyətini və nəticələrini anlamışlarsa, cinayət məsuliyyəti daşıyırlar.

Latviya Cinayət Məcəlləsi, anlaqsızlıq halları istisna olmaqla, 14 (on dörd) yaşı tamam olmamış şəxslərin cinayət məsuliyyətini istisna edir.

Həmçinin, bu cinayət qanunlarının əksəriyyətində yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti ilə bağlı normalar rəsmiləşdirilməklə qanunvericiliyin mövqeyi dəqiqləşdirilir.

Belə məlum olur ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi də, daxil olmaqla bir sıra Cinayət Məcəllələri – bəzi cinayətlərin xarakterinin şəxslər tərəfindən daha erkən yaşda qavranıla bilməsini nəzərə alaraq, onlar üçün məsuliyyətin daha aşağı yaş həddindən başlanmasını təsdiqləyir.

Bizim cinayət qanunvericiliyi də yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə ayrıca bölmə ayırmışdır. Burada qeyd edilir ki, cinayət törədərkən 14 (on dörd) yaşı tamam olmuş, lakin 18 (on səkkiz) yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur [4, s. 41]. Həmçinin bunlarla yanaşı, cinayət qanunu 14 (on dörd) yaşına çatmayan şəxslərin məsuliyyət məsələsini belə həll edir: "İctimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman bu Məcəllənin 20.1 və 20.2-ci maddələrində nəzərdə tutulmuş yaş həddinə çatmamış şəxslər barəsində görülən tədbirlər və həmin tədbirlərin tətbiqi qaydası müvafiq qanunla müəyyən edilir". Burada müvafiq qanun dedikdə "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə

komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 31 may 2002-ci il tarixli Qanunu nəzərdə tutulur.

Bildiyimiz kimi, bizim cinayət qanunvericiliyində 14 (on dörd) yaşdan məsuliyyətə cəlb etməyə hüquq verən cinayətlərin siyahısı göstərilərkən, bu cinayətlər heç də cinayətlərin konkret kateqoriyasindan seçilməmişdir. Burada, yalnız həmin ictimai təhlükəli əməllərin xarakteri, onların cəmiyyətə, şəxsiyyətə, dövlətə vurduğu ziyanın dərəcəsi və digər kriminogen xüsusiyyətləri nəzərə alınmışdır.

Bundan başqa, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 20.3-cü maddəsinə əsasən, ictimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman bu Məcəllənin 20.1 (16 yaş) və 20.2-ci (14 yaş) maddələrində nəzərdə tutulmuş yaş həddinə çatmamış şəxslər barəsində görülən tədbirlər və həmin tədbirlərin tətbiqi qaydası müvafiq qanunla müəyyən edilir [1, s. 41].

Aydındır ki, cinayət hüququ elmi – cinayət hüququ fənni və cinayət qanunvericiliyinin təkmilləşdirilməsi üçün mühüm baza rolunu oynayır. Bu sahələr daim bir-biri ilə əlaqəli formada fəaliyyət göstərir və cinayət-hüquqi münasibətləri tənzimləmək məqsədilə qəbul ediləcək normativ-hüquqi aktların mahiyyətini müəyyən edir.

Cinayət torədənin şəxsiyyəti haqqında muxtəlif elmi yanaşmalar və fikirlər movcuddur. Kriminogenliyi öyrənən əksər nəzəriyyə və konsepsiyaların əsasını insan davranışının muəyyən modeli təşkil edir [5, s. 13-15].

Belə ki, cinayətə gedən yolu formalaşdıran bir həyat və həmin həyat yolunun uşaqlıqdan başlayaraq, yetkinlik yaşına çatana qədər olan dövrü vardır.

İnsanların hər birinin ozunəxas sosial siması vardır [7, s. 21-22]. Albert Bandura şəxsiyyəti – fərd, davranış və muhitin qarşılıqlı əlaqəsi kimi tədqiq edirdi [7, s. 23].

Çünki, insanların özlərinə məxsus olan spesefik xüsusiyyətlərinin – onların uşaqlıqdan başlayaraq formlaşmasına böyük təsiri vardır.

Şəxsiyyətin özəyini təşkil edən motivasiya sahəsində həyati yonəlişlər, qiymətləndirmə meyarları, istiqamətlənmələr, emosiya, iradi keyfiyyətlər, məqsəd və ideallar kimi xusすることyyətlərin təsiri boyukdur [6, s. 24].

Ümumilikdə isə cinayətkar normal həyata uyğunlaşmağı bacarmayan şəxsdir. Onun törətdiyi cinayət isə anormallığın simptonlarıdır [3, s. 34].

Cinayətkar mühitə uyğunlaşmaq bir çox hallarda, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi kimi 14 (on dörd) yaşa qədər və ondan sonrakı 18 (on səkkiz) yaşa qədər olan dövrdən başlayır.

Göründüyü kimi, hazırda – cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi mövzuzunda, Azərbaycanla digər xarici ölkələrin yanaşmaları arasında müqayisəli analiz aparmaq və cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların cinayət-hüquqi müdafiəsinin problemləri ilə bağlı müxtəlif təkliflər vermək aktuallığı yaranmışdır.

Xüsusilə də, çətin tərbiyə olunan uşaqların – gələcəkdə cinayət tərkibli əməllərin törədilməsinə meyilliyi, o cümlədən cinayətkarlığa gedən yolda olan ilkin addımları, onların yetkinlik yaşına catana qədərki dövrləri əhatə edir. Hansı ki, uşaqların bu dövrünü əhatə edən yetkinlik yaşına catmayanların kriminolgiyası və cinayət-hüquqi müdafiəsi ilə bağlı elmi təqdqiqatlar – təkcə cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmış dövrdən, daha dəqiq desək, bizim cinayət qanunvericliyə görə 14 (on dörd) yaşdan başlayaraq 18 (on səkkiz) yaşa qədər olan dövrü deyil, eyni zamanda cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış dövrü, yəni ki, 14 (on dörd) yaşa qədər olan dövrü də əhatə etməlidir. Cünki, 14 (on dörd) yaşa qədər olan yaş

dövrünü əhatə edən yetkinlik yaşına çatmayanlarla bağlı məsələlərin araşdırılması – nəticə də, cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların cinayət-hüquqi müdafiəsi ilə bağlı problemlərin öyrənilməsi və bu mövzuda bizimlə digər ölkələr arasındakı fərqli yanaşmaların müqayisəli analizini, habelə, bu problemlərin aradan qaldırılmasına dair yeni təkliflərin verilməsini, həmçinin həmin təkliflər əsasında, bu kateqoriyalı yeniyetmələrin müdafiəsinin hansı qaydada təşkil edilməsini zəruri edir.

## Biblioqrafiya


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. – Bakı: Hüquq yayın evi, 2020. -779 s.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası. – Bakı: Hüquq yayın evi, 2014. - 1087 s.
3. Polis Akademiyasının Elmi Xəbərləri 3(23). – Bakı: Ecoprint, 2019. - 179 s.
4. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. – Bakı: Digesta, 2013. - 719 s.
5. Курт Бартол. Психология Криминального Поведения. - Санкт-Петербург, 2004. -352 с.
6. Литвинников В.М. Психология и педагогика в профессиональной деятельности юриста. - М.: МПСИ, 2004. 191 с.
7. Хьелл Л., Зиглер Д. Теории личности. 3-е изд., - СПб.: Питер, 2007. - 607 с.


**Javadov A.I.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.72.87-94**
**UDC: 343**

## Comparative analysis of differing approaches between Azerbaijan and foreign countries – related to the age limit giving opportunity for the criminal responsibility

**Abstract:** Currently it is important to conduct a comparative analysis between the approaches of Azerbaijan and other foreign countries related the age limit giving opportunity for the criminal responsibility and to make various proposals regarding the problems of criminal-legal protection of minors who have not reached the age of criminal responsibility. Especially it covers the tendency of children who are brought up with difficulty to commit criminal acts in the future, as well as, the initial steps on the way to criminality, the periods before they reach adultage. Of which the scientific studies on criminology and criminal-legal protection of minors covering this period of children - only from the age of criminal responsibility, more precisely, from 14 (fourteen) to 18 (eighteen) years according to our criminal law) should cover not only the period up to the age of 14, but also the period before the age of criminal responsibility, that is up to the age of 14 (fourteen). Because the investigation of issues related to minors covering the age period up to 14 (fourteen) years old -

♦ **Javadov Anar Ilyas oglu** – PhD in Law, a lawyer of the Bar Association of the Republic of Azerbaijan, doctoral student of the Criminal Law and Criminology Department of the Baku State University (Azerbaijan). E-mail: vekil_anar@mail.ru

as a result, makes it necessary the study of the problems related to the criminal-legal protection of minors under the age of criminal responsibility and comparative analysis of the different approaches between us and other countries in this regard, as well as making new proposals for the elimination of these problems, as well as, how to organize the protection of this category of teenagers based on these basis.

**Keywords:** age limit; minor; minor not reached the age of criminal responsibility; criminology, criminological characterics.

## References

1. Criminal Code of the Republic of Azerbaijan. Baku, Huquq Yayin Evi Publ., 2020, 779 p. (in Azerbaijani).
2. Commentary to the Criminal Code of the Republic of Azerbaijan. Baku, Huquq Yayin Evi Publ., 2014, 1087 p. (in Azerbaijani).
3. Scientific News of the Police Academy. No. 3(23). Baku, Ecoprint Publ., 2019, 179 p. (in Azerbaijani).
4. Samandarov F.Y. Criminal Law. General Part. Baku, Digesta Publ., 2013, 719 p. (in Azerbaijani).
5. Kurt Bartol. Psychology of Criminal Behavior. S. Petersburg, 2004, 352 p. (in Russian).
6. Litvinnikov V.M. Psychology and pedagogy in the professional activity of a lawyer. Moscow, MPSI Publ., 2004, 191 p. (in Russian).
7. Kjell L., Ziegler D. Theories of personality. 3rd ed. S. Petersburg, Piter Publ., 2007, 607 p. (in Russian).

**Джавадов А.И.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.72.87-94**
**УДК: 343**

## Сравнительный анализ разных подходов между Азербайджаном и зарубежными странами относительно возрастного ограничения уголовной ответственности

**Аннотация:** На данный момент необходимо провести сравнительный анализ подходов Азербайджана и других зарубежных стран относительно возрастного предела привлечения к уголовной ответственности и внести различные предложения по проблемам уголовно-правовой защиты несовершеннолетних, не достигших возраста уголовной ответственности. В частности, она охватывает склонность детей, воспитывающихся с трудом, к совершению преступных деяний в будущем, в том числе на начальных этапах пути к преступности, в периоды до достижения ими совершеннолетия. Какие научные исследования по криминологии и уголовно-правовой защите несовершеннолетних, охватывающие этот период жизни детей -

♦ **Джавадов Анар Ильяс оглы –** доктор философии права, адвокат, член Коллегии адвокатов Азербайджанской Республики, докторант кафедры уголовное право и криминология, Бакинский государственный университет (Азербайджан). E-mail: vekil_anar@mail.ru

только с возраста уголовной ответственности, точнее, с 14 (четырнадцати) до 18 (восемнадцати) лет по нашему уголовному законодательству) должны охватывать не только период до 14 лет, но и период до наступления возраста уголовной ответственности, то есть до 14 (четырнадцати) лет. Потому что, изучение вопросов, связанных с несовершеннолетними, охватывающих возрастной период до 14 (четырнадцати) лет – результат изучения проблем, связанных с уголовно-правовой защитой несовершеннолетних, не достигших возраста привлечения к уголовной ответственности, и сравнительного анализа различных подходов в этом отношении между нами и другими странами, а также выдвижения новых предложений по устранению этих проблем, а также исходя из этого, возникает необходимость в том, в каком порядке должна быть организована защита данной категории подростков.

**Ключевые слова:** возрастной предел; несовершеннолетний; несовершеннолетний, не достигший возраста для привлечения к уголовной ответственности; криминология; криминологическая характеристика.

## Библиография

1. Уголовный Кодекс Азербайджанской Республики. – Баку: Хугуг Яйын еви, 2020. – 779 с. (на азерб. яз.)
2. Комментарий к Уголовному кодексу Азербайджанской Республики. – Баку: Хугуг Яйын еви, 2014. – 1087 с. (на азерб. яз.).
3. Научные новости академии полиции. - № 3(23). – Баку: Экопринт, 2019. – 179 с. (на азерб. яз.).
4. . Самандаров Ф.Ю. Уголовное право. Общая часть. – Баку: Дигеста, 2013. – 719 с. (на азерб. яз.).
5. Курт Бартол. Психология Криминального Поведения. - Санкт-Петербург, 2004. -352 с.
6. Литвинников В.М. Психология и педагогика в профессиональной деятельности юриста. - М.: МПСИ, 2004. 191 с.
7. Хьелл Л., Зиглер Д. Теории личности. 3-е изд., - СПб.: Питер, 2007. - 607 с.